Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 52 saylı Quba seçki dairəsi üzrə Dağlı – Qələdüz bələdiyyəsi üzvlüyünə namizəd Əliyev Hidayət Seyfəl oğlu və digərlərinin 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 184 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 52 saylı Quba seçki dairəsi üzrə Dağlı – Qələdüz bələdiyyəsi üzvlüyünə namizəd Əliyev Hidayət Seyfəl oğlu və digərlərinin 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 52 saylı Quba seçki dairəsi üzrə Dağlı – Qələdüz bələdiyyəsi üzvlüyünə namizəd Əliyev Hidayət Seyfəl oğlu və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, 16 saylı seçki məntəqəsində seçkilərin saxtalaşdırılmasını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında mənim vəsatətim əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Araşdırma prosesində namizəd Əliyev Hidayət Seyfəl oğluna məxsus telefon vasitəsilə onunla əlaqə saxlanılmış və əlavə sübutlar təqdim etmək barədə hüquqları ona izah edilmişdir.

O, bildirmişdir ki, teleqramda göstərdiyi faktlardan başqa sübutlara malik deyildir.

Araşdırma nəticəsində teleqramda iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, dairə seçki komissiyasının sədri M.C.Abbasov və üzvləri, 52 saylı Quba seçki dairəsinin 16 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər V.Atayev, Z.Dadaşov, müşahidəçilər N.Rəhimov, M.İsrafilov, seçicilər

N.Baxışov, İ.Malıbəyov, T.Cənəliyevin verdikləri izahatlardan Dağlı – Qələdüz bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 52 saylı Quba seçki dairəsinin dairəsi dairə seçki komissiyasının sədri M.C.Abbasov və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından Dağlı – Qələdüz bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaş Əliyev Hidayət Seyfəl oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 184 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat müddətində dərc olunsun və surəti aidiyyəti şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov